# 2022-ci ilin ilk uğuru

**Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" sənədə əsasən, 2022-ci il dövlət büdcəsinin gəlirləri 26 milyard 816 milyon manat (2021-ci ilin proqnozu ilə müqayisədə artım 10, 2%) məbləğində təsdiq edilib. Bu il gəlirlərin 14 milyard 690 milyon manatı və bütün daxilolmaların 54,8 %-i neft sektorunun, 12 milyard 126 milyon manatı və ya gəlirlərin 45,2 %-i qeyri-neft sektorunun payına düşəcək. Dövlət büdcəsinin kəsiri 3 milyard 63 milyon manat və ya ÜDM-in 3, 5%-i səviyyəsində proqnozlaşdırılır. Yeni büdcənin gəlirlər və xərclər hissəsində ötən illərlə müqayisədə artımlar nəzərdə tutulub. Bütün bunların Azərbaycanda postmüharibə dövründə və pandemiyanın hələ də davam etdiyi şəraitdə baş verdiyini nəzərə alsaq, ölkəmizin nəhəng iqtisadi gücünü daha düzgün qiymətləndirə bilərik.**

## *Ölkəmizdə müstəqillik tarixinin ən böyük büdcəsi icra olunacaq*

Qalib ölkə olaraq hərbi qüdrətini dünyaya nümayiş etdirən Azərbaycan 2022-ci ilə də yeni reallıqlar və kifayət qədər mühüm əhəmiyyət daşıyan həm iqtisadi, həm də sosial nailiyyətlərlə qədəm qoyubdur. İlin ilk uğuru budur ki, dövlətin əsas maliyyə sənədi olan 2022-ci ilin dövlət büdcəsi Azərbaycanın müstəqillik tarixinin ən böyük büdcəsi hesab olunur. 2022-ci il üzrə büdcə siyasətinin istiqamət və hədəfləri mövcud qlobal iqtisadi çağırışlar, eləcə də "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində müəyyən edilmiş prioritetlər və onların həyata keçirilməsi üçün qarşıya qoyulmuş strateji məqsədlər nəzərə alınmaqla tərtib olunub. Beləliklə, makroiqtisadi sabitliyin qorunması, fiziksal dayanıqlığın təmin edilməsi, digər tərəfdən ölkədə sahibkarlığın inkşafına dövlət tərəfindən yardımların edilməsi, işğaldan azad olunan ərazilərin bərpası ilə bağlı 2021-ci ildə kifayət qədər işlərin görülməsi əslində 2022-ci ilin Azərbaycan Respublikasının dövlət büdcəsinin istər mədaxil, istərsə də məxaric hissəsinin artan templərlə inkişaf etməsinin əsas maliyyə təminatını yaradıb. Onu da qeyd etmək lazımdır ki, ötən ilin dövlət büdcəsi qəbul olunarkən neftin bir barrelinin qiymətinin nəzərdə tutulduğundan faktiki olaraq çox olması ölkədə makroiqtisadi sabitliyin qorunub saxlanmasına, fiziksal dayanıqlığın təmin edilməsinə səbəb olub. Bununla yanaşı, işğaldan azad olunan ərazilərin bərpası ilə bağlı dövlət büdcəsinə birbaşa edilən investisiyalar nəticəsində həmin ərazilərin yenidən qurulması sayəsində ümumi mənzərənin dəyişdirilməsinin, gələcəkdə Azərbaycan iqtisadiyyatı üçün inteqrasiya olunacaq iqtisadiyyatın qurulmasının, inkişaf etdirilməsinin təməli qoyulmuşdur. Təqdirəlayiqdir ki, 2022-ci ilin dövlət büdcəsinin gəlir hissəsində 1 milyard 600 milyona yaxın artım var. Dövlət qurumları tərəfindən bildirilir ki, bu artım vergi daxilolmaları və gömrük rüsumları hesabınadır. Vergi daxilolmalarından artımlar heç də vergi dərəcələrinin artırılması ilə bağlı deyil, bu işdə yeni vergi mənbələrinin əldə edilməsini xüsusi vurğulamaq lazımdır. Belə ki, Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 8 milyard 820 milyon manat, Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmalar 4 milyard 260 milyon manat məbləğində nəzərdə tutulub. Qalanı digər mənbələrin payına düşür.




Beynəlxalq təcrübəyə diqqətçəkən iqtisadçılar qeyd edirlər ki, reallıqda müharibədən çıxan dövlətlər sosial müdafiə xərclərini azaltmalı, təhlükəsizlik xərclərini isə artırmalıdır. Qüdrətli Azərbaycan müharibədən yeni çıxmasına baxmayaraq dövlət başçısı sosial müdafiəni gücləndirir, davamlı təhlükəsizlik və hərbi məsələlərin həll edilməsi ilə bağlı da büdcədən kifayət qədər vəsaitlərin ayrılmasını təmin edir. Bu ilin büdcəsində sərhədlərimizdə təhlükəsizliyin və sülhün təmin edilməsi, səhiyyə, təhsil, sosial müdafiə sahəsində aparılan islahatların dəstəklənməsi üçün kifayət qədər maliyyə vəsaiti ayrılıb. Koronavirus pandemiyasına qarşı ölkədə aparılan mübarizə tədbirləri və bu çərçivədə ölkə əhalisinin peyvəndlənməsi ilə bağlı məsələlərə əlavə 300 milyon manata yaxın vəsaitlərin ayrılması nəzərdə tutulur. Dövlət büdcəsində səhiyyəyə ayrılan vəsait bir daha göstərir ki, Azərbaycan dövləti məhz bu sahənin ikişaf hədəflərinin reallaşdırılması istiqamətində davamlı addımlar atmaq əzmindədir.

Ötən ilin dövlət büdcəsində olduğu kimi, bu il də Azərbaycanda işğaldan azad olunmuş ərazilərin bərpası ilə bağlı 2. 2 milyard manat vəsait ayrılıb. Bu torpaqlarda infrastrukturun yaradılması, yeni iqtisadiyyatın qurulması, iri layihələrin həyata keçirilməsi nəzərdə tutulub. Bu baxımdan, növbəti ilin dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinə xüsusi əhəmiyyət verilməsi çox önəmli və vacibdir. Mühüm məqamlardan biri də budur ki, işğaldan azad edilmiş ərazilərdə bərpa-yenidənqurma işlərinin aparılması, müasir iqtisadi sahələrin yaradılması, infrastrukturun qurulması, əsas fəaliyyət sahələri kimi kənd təsərrüfatının inkişaf etdirilməsi, müasir turizm seqmentinin formalaşdırılması, regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpası istiqamətində işlər təxirəsalınmaz vəzifələr sırasındadır və bu məsələlərin hər biri gələn ilin dövlət büdcəsində öz əksini tapmışdır. Bununla yanaşı, büdcədə təqdim edilmiş iqtisadi və sosial inkişaf proqnozları real imkanlara və fürsətlərə əsaslanır. Büdcə xərclərinin planlaşmasında sosial siyasət, təhlükəsizlik, iqtisadi inkişaf kimi dövlətin prioritetlərini müəyyən edən əsas xətlər dəstəklənir, antiinflyasiya tədbirləri nəzərə alınır. Bu yanaşma dövlətimizin qeyd olunan sahələrinin daha da gücləndirilməsinə, cəmiyyətimizin inkişafına öz töhfəsini verəcəkdir.

Birmənalı olaraq demək lazımdır ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən olunmuş milli prioritetlər ölkənin dayanaqlı inkişafını təmin edir və gələcəkdə də edəcəkdir. Azərbaycan iqtisadiyyatı cari ili 5 faiz artımla başa vuracaq. Bu baxımdan proqnozlar nikbinliyə əsas verir. Büdcə xərclərinin 46, 5 faizi birbaşa sosial istiqamətə yönələcək. Başqa sözlə, 2022-ci ilin büdcəsi daha çox sosialyönümlü olacaq. 2022-ci ilin dövlət büdcəsinin əsas xərclərini, təxminən 40 faizini sosialyönümlü xərclər təşkil edəcək. Minimum aylıq əməkhaqqının məbləğinin artırılması, o cümlədən büdcədən maliyyələşən təşkilatlarda əməyin ödənilməsi sisteminin təkmilləşdirilməsi nəzərdə tutulur. Eyni zamanda, əmək pensiyalarının minimum məbləğinin, ünvanlı dövlət sosial yardımın təyin edilməsi məqsədilə ehtiyac meyarı həddinin, bir sıra sosial müavinətlərin, doktorantların və tələbələrin təqaüdlərinin məbləğinin artırılması nəzərdə tutulur ki, bu tədbirlərin maliyyələşdirilməsi 2022-ci ilin dövlət büdcəsinin sosial xərclərində xüsusi yer tutacaq. "Biz əlavə gəlirlərimizin demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik", - deyə bildirən Prezident İlham Əliyevin rəhbəriliyi ilə inqilabi sosial islahatlar reallaşdırılır. Dövlət başçısının imzaladığı "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncama uyğun olaraq 2022-ci ilin dövlət büdcəsinin sosial ödənişlərin artırılması ilə bağlı islahatlar nəzərə alınıb. Əmək müqaviləsi ilə çalışanların böyük qisminin əməkhaqları artırılacaq. Bu islahat 1 milyonadək işçini əhatə edəcək. O cümlədən, minumum əməkhaqqında artım olacaq. Ümumilikdə, 2022-ci ilin əvvəlindən 2 milyondan çox insanı əhatə edən pensiya, müavinət, təqaüd, əməkhaqqı, sosial yardım formasında sosial ödənişlərdə artımlar olacaq. 2022-ci ildə minimum pensiyaların artımı ilə yanaşı, pensiyaların indeksləşdirmə əsasında artırılması da nəzərdə tutulur.

Ümumilikdə sosial müdafiə sisteminin bütün istiqamətləri üzrə inkişaf dinamikası mövcuddur. Bütün bunlar ölkəmizdə güclü sosialyönümlü siyasətin, sosial inkişafın da davamlı xarakter aldığını göstərir. Beləliklə, Prezident İlham Əliyevin qayğısı ölkəmizdə inkişaf istiqamətində mühüm nailiyyətlərin əldə olunmasına imkan verib və 2022- ci ildə bu uğurların sırası daha da genişlənəcək.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2022.- 26 yanvar.- S.6.